# Nəriman Nərimanov – Açıq söyləmək gərək

***Nəriman Nərimanov (14.04.1870. – 19.03.1925.)***



***Bütün Rusiya dövlətində başlanan inqilab hər bir millətin, firqənin, sinfin, hər bir fərdin həyatında da*** ayrıca-ayrıca inqilab meydana gətirməkdədir. Dünən alqışlarla qəbula keçmiş məramnamə bu gün təğyir tapır, ya bilmərrə pozulur. Dünən millət, din naminə insanları bir-birindən ayıran və sinif mübarizəsi nə olduğunu bilmək istəməyən firqə, bu gün sinif mübarizəsinə dəvət etməkdədir. Dünən «mərsiyəxanlar» dalınca gedən fəhlə bu gün haman «mərsiyəxanları» içlərindən qovmaqdadır. Dünən bəyi, mülkədarı özünə nümayəndə seçən kəndçi bu gün haman mülkədardan üz çöndərməkdədir. Dünən afərinlər ilə əl üstə gəzdirilən natiqlər bu gün iclaslardan kənar olunurlar. Kəbir Rusiya inqilabı millətləri, firqələri, sinifləri və hətta, hər bir fərdi imtahan meydanına çökməkdədir. Bu inqilaba hazır olmayanların bir parası haman inqilabın tələbini, ruhunu düşünüb özünü bir tərəfə çıxarmaqda ikən, düşünməyən, hiss etməyənlər, ruhdan zəif, tarixdən xəbərsizlər bu inqilabın dəhşətli ləpələrində boğulmaqdadırlar.

Böyük, məsuliyyətli bir gün! Böyük imtahan günü!

Gəncə hadisatı, bu barədə yazılan məqalələr və bu yolda işlənən qara fikirlər bizim beynimizi büsbütün çaxnaşdırır… Bu dərəcədə vicdansızlıq, bu dərəcədə nadanlıq, hal-hazırəni düşünməmək və bu düşünməməklə sevdiyin bir milləti atəşə vermək mümkünmü? Ey başsız, bədbəxt, səadətini vicdansız, xəyanətçi nümayəndələrə tapşıran Zaqafqaziya müsəlmanları! Ey millətinə qulluq etmək istəyən firqələr və cəmiyyətlər! Ey müsəlman, türk mühərrirləri və natiqləri! Gəncə ətrafında olan hadisata bir yaxşı fikir veriniz, sonra atəşin nitqlər və iti qələmlərlə meydana çıxınız.

Petroqradda xalq hökuməti elan edibdir ki, belə bir həyəcanlı vəqtdə milli qoşun düzəltmək yaramır, çünki bu qoşunlar axırda bir-birilə toqquşacaqlar. Bunun əvəzində xalq hökuməti təklif edir ki, krasnı qvardiya düzəlinsin; yəni hürriyyətin canı, hürriyyəti öz qanı ilə qazanan fəhləni və kəndçini silahlandırmaq ki, bir də nikolaylar baş qaldıranda bunlar hürriyyəti müdafiə edə bilsinlər. Bu hökumət bununla bütün millətləri birləşdirirdi; müsəlman, rus, erməni, gürcü fəhlələri və kəndçiləri silahlanırdılar ki, hamı birdən hürriyyəti puç etmək istəyən ağaların və onların hamisi nikolayların müqabilinə çıxsınlar. Demək ki, belə bir qarışıq, təhlükəli vaxtda xalq hökuməti tamam millətləri, daha doğrusu hamı millətlərin müəyyən siniflərini, bir bayraq altına dəvət edirdi və hazırda edir də. Bu hökumətin məqsədi ümumi qüvvə ilə inqilabı dərinləşdirmək, möhkəmləşdirməkdir; yəni inqilabı bir dərəcəyə gətirmək ki, qara fikirli sərmayədar və mülkədarın tərəfindən hürriyyətin üzərinə hücum edilməsin. Bu asudəliyə çıxandan sonra hər millət öz işilə rahat məşğul ola bilərdi.

İndi baxınız, görünüz Tiflisdə oturan hökumət nə rollar oynayır.

Petroqradda oturan hökumət bolşeviklərdən ibarətdir. Tiflisdə oturan hökumət gürcü menşeviklərindən ibarətdir. Gürcü sözünü artırmaqdan əsil məqsədimiz buradadır ki, hökumətin qüvvəti də gürcülərdən ibarət menşevik soldatlardadır. Demək ki, hal-hazırda Tiflisdə çıxan qanunlar menşevik gürcülərin qanunudur.

Bunlar Petroqrad hökumətinin ziddinə gedib inqilaba böyük zərbə vururlar. Bunlar erməni və müsəlman millətlərinə böyük xəyanətlər edirlər. İstəyirsiniz biləsiniz, buyurunuz. Tiflis hökumətinin əvvəlinci xəyanəti budur ki, milli qoşunlar meydana gətirdi, yəni müsəlmanlara və ermənilərə dedi: özünüz üçün hər kimdən istəyirsiniz qoşun düzəldiniz. Onu da siz bilirsiniz ki, erməni, gürcü qoşunu hazırdırlar və üç ildir müharibə edirlər. Demək ki, müsəlmanar təzədən gərək qoşun düzəltsinlər. Bunlar nə vaxt hazır olacaqlar, məlum deyildir…

Tutalım ki, düzəldi. Bunların vəzifəsi nədir? Hərgah inqilabı müdafiə etməkdirsə; nə lazım gəlmişdi ki, ayrıca-ayrıca müsəlman, erməni və gürcü polkları meydana gəlsin? Gərək elan oluna idi; bütün müsəlman, erməni, gürcü fəhlə və zəhmətkeşləri silah altına cəm olunuz!

Bunları cəm edib də, bir yolda və bir ruhda bunlara tərbiyə verməli idi. İndi nə görürük; erməni milli soldatından xəbər alırsan: sən kimi və nəyi müdafiə etməyə hazırlaşırsan? Deyir: Ermənistanı və millətimi. Müsəlman polkunun soldatı da deyir: mən millət qoşunuyam və millətimin yolunda can verəcəyəm. Gürcü soldatı da həmçinin. Bu millət sözü araya gəlib: fəqət bu millətlərə can verən, bunların hüququnu topsuz, tüfəngsiz müdafiə edən hürriyyət arada unudulur… və getdikcə bu millətpərəstlərin başları ancaq milli məsələlərə qarışıb özlərilə hazırladıqları qoşunları da aparacaqlar; aparıb da bir məqama çatdıracaqlar ki, erməni, gürcü və müsəlman polkları bir-birinin müqabilində durub Qafqazı bölmək fikrində olacaqlar… Baxınız, yaxşı fikir ediniz: Tiflis hökumətinin vaxtsız və yersiz verilən qanunu bu zavallı millətlərin başlarına nə bəlalar hazırlayır, bunlara necə bir dərin quyu qazır…

Tiflis hökumətinin millətlər barəsində ikinci xəyanəti: rus soldatlarından tüfənglərın alınması. Rus soldatı kəndçidir. Petroqrad hökuməti, necə ki dedik, bunlara izn verir ki, evlərinə tüfənglə qayıtsınlar. Tiflis

hökuməti yenə də provokasiya işlədib, qafqazlılara deyir: bu tüfəngləri rus soldatlarından alınız, çünki sizə lazım olacaqdır. Bu almağın özündə də böyük vicdansız bir provokasiya var. Buna yaxşı fikir versəniz, özünüz də düşünərsiniz.

Tiflis hökuməti Gəncədə müsəlmanlara ixtiyar verir ki, orada sakin olan bolşevik soldatların tüfənglərini alınız. Bunun nəticəsini eşitdiniz və gördünüz; fəqət provokasiya bununla qurtarmır. Rus qoşunu cəbhəni buraxıb evlərinə getməkdədir. Bunların yolları Tiflisdəndir. Tiflis hökuməti tüfəngləri rus soldatlarından Tiflisdə almayıb buraxır, sonra yolda, bütün müsəlman mahalında, dəmir yolun hər iki tərəfində müsəlman kəndləri olan yerlərdə rus soldatlarının vaqonlarını axtarıb, tüfənglərini aldırırlar. Tüfəng alanların arasında bir Diki diviziyadan başqa erməni və gürcü soldatları da vardır. Hətta Tiflisdən zirehli qatar da göndərilibdir. Fəqət, çünki mahal müsəlman mahalıdır və iğtişaş düşəndə müsəlman mahalında düşür, ona görə rus soldatları fikir edirlər ki, bunlara təcavüz edənlər müsəlmanlardır. Cəbhəyə xəbər verirlər. Cəbhədən gələn soldatlar da indi yüz-yüz gəlmirlər. Bu əhvalatı eşidib top-tüfəng, polklar ilə evlərinə gedirlər. Tiflis hökuməti bunları yollarda saxladıb yenə də təcavüz etdirir. Bu soldatlar da özlərini müdafiə edərkən atışırlar, atışmada nəzərə gələn müsəlmanlardır, çünki əhali ancaq müsəlmanlardan ibarətdir. Ona görədir ki, vermişşevlər* də yazırlar: «filan müsəlman əhalisilə soldatların atışmaları oldu. Bunları soldatlar eşidib, görüb və oxuyub fikir edirlər: əcəba, biz nə etmişik ki, müsəlmanlar bizi qırmaq istəyirlər. İndi ki belədir, biz də özümüzü göstərərik və göstərirlər də…».

Bu sözlərdən sonra biz yenə də Tiflis hökumətindən sual etmək istəyirik: nə üçün bu soldatların, bu polkların toplarını, tüfənglərini Tiflisdə almırlar? Buna Tiflis hökuməti nə cavab verəcəksə bilmirik, fəqət biz buna belə cavab veririk; bu qoşunun Tiflisdə qabağına çıxsalar, bunlar Tiflisi dağıdarlar. Buna da heç vaxt Tiflis hökuməti, gürcü nümayəndələri razı olmazlar. Qoy yenə də çıxan can, viran olan yurd, tökülən qanlı yaşlar müsəlmanın olsun; yəni bir millətin, bir camaatın qoy evi yıxılsın ki, onun protest etməyə Tiflis hökumətində nümayəndəsi yoxdur və ya varsa, bu camaatın nümayəndəsi hesab olunmur…

Qoy bir camaata və millətə quyu qazılsın ki, o millət, camaat inqilabın bu təhlükəli vaxtında siyasi firqələrindən üz çöndərib tamam işlərini yalançı, şovinist millətpərəstlərə tapşırıbdır. Qoy bir millətin və camaatın əli ilə xoşbəxtlik qazanaq ki, o camaat və millət hala özü üçün inqilabın tələbini aşkar etməyibdir…

Şəksiz, bu fikirlər ilə gürcü menşeviklərindən ibarət Tiflis hökuməti müsəlman zəhmətkeşlərini qırğına verir… Yoxsa bir camaatın haqqında bu dərəcədə vicdancızlıq mümkünmü?

Bəs haman hökumətdə oturan müsəlman nümayəndələri nə fikirdədirlər?

Məgər bunlar bilmirdilərmi ki, müsəlman kəndçilərinə də yer lazımdır?

Nə üçün yer məsələsində bunlar bütün kəndçilərə zidd olub kəndçilər və ağalar arasında iğtişaşın meydana gəlməsinə səbəb oldular?

Biz belə məsuliyyətli bir vaxtda müsəlman zəhmətkeşlərinə qazılan quyunu görüb də ağzımıza su almayacayıq. Açıq-açığına deyirik: Tiflisdə oturan Zaqafqaziya hökuməti vaxtsız və yersiz qanunlar ilə Zaqafqaziyada yaşayan millətləri belə bir təhlükəli vaxtda birləşdirməkdənsə, milli məsələləri araya atıb, bu millətləri bir-birindən nəinki ayırır və hətta gələcəkdə qanlı faciəyə meydan açır. Bu hökumətin başında oturan müsəlman nümayəndələrini biz camaat tərəfindən seçilmiş nümayəndələr hesab etmirik. Müsəlman fəhlə və kəndçilərinin hüququnu müdafiə etməyə bunları nəinki layiq bilmirik, hətta bunların mülkədar və sərmayədar tərəfdarı olmaqlarını aşkar görürük.

Buna binaən, bütün Zaqafqaziyada yaşayan müsəlman fəhlə və kəndçiləri tezliklə bir qurultay çağırmalıdırlar. Bu qurultayda özləri üçün fəhlə və kəndli şurasını düzəldib açıq-açığına söyləməlidirlər ki, müsəlman fəhlə və kəndçiləri indiki Zaqafqaziya hökumətini hökumət saymır və ancaq Petroqradda[kı] Xalq hökumətinin qanunlarına tabe olub məhəlli fəhlə və soldat deputatlarının Şurası ilə birgə işləməklərini elan etməlidirlər. O yerdə ki, fəhlə və soldla deputatları Şurası yoxdur, müsəlman fəhlə və kəndçiləri qeyri millətlər ilə bir yerdə bu Şuraları meydana gətirməlidirlər.

Bir düz yol varsa, o da budur. Bu yol müsəlman zəhmətkeşlərini həm Tiflis hökumətinin fikirsiz qanunlarından və həm də bu vaxtadək bu qanunlar ilə hərəkət edən milli Zaqafqaziya komitetindən xilas edə biləcəkdir.

Biz üzümüzü bütün müsəlman siyasi firqələrinə tutub da deyirik; tamamdır! Gürcü menşeviklərinin hərəkətləri[ni] və bunların Tiflis hökumətinin başında oturub oynadıqları rolları görürsünüz. Bütün

qüvvətinizi bu qurultayın meydana gəlməsinə işlədiniz. Bəlkə bu yol ilə biz müsəlman zəhmətkeşlərini qonşu millətlərin zəhmətkeşləri ilə birləşdirib, indiki və istiqbalda gözlənilən qanlı faciələrin qabağını alaq və inqilabı möhkəmləşdirək. Mühərrirlərimizə, əhl-qələm yoldaşlarımıza deyirik: «Filan yerdə soldatlar müsəlmanları qırdılar, indi də müsəlmanlar soldatları qıranda nə böyük şey olur»–demək ilə millətin dərdinə əlac olmur. Zaqafqaz hökumətinin oynadığı rolları bilmək və onun çarəsini tapmaq lazımdır. Haydı, əfəndilər! Biz göstərdiyimiz çarəni qəbul edirsiniz isə, qələmlərinizi bu yolda ciddi surətdə işlədiniz. Çünki camaatın: «vaxtında nə etdiniz?» sualına əvvəlinci cavab verən siz olacaqsınız.

N.Nərimanov

«Hümmət» qəzeti № 27,

16 yanvar 1918-ci il

Qəzetin mətnindən dərc olunur

---

* – Vermişşev inqilabdan qabaq rusca «Baku» burjua qəzeti naşiri və redaktoru olmuşdur. Red.